# Beynəlxalq müsabiqələr laureatı




Vüsal Aydəmirov 1993-cü ildə Bakı şəhərində anadan olub. 2010-cu ildə Bakı şəhəri 201 nömrəli tam orta məktəbi bitirib. Orta məktəbi oxumaqla yanaşı, Səid Rüstəmov adına 13 nömrəli musiqi məktəbini fortepiano ixtisası üzrə fərqlənmə diplomu ilə başa vurub. Həmin il Azərbaycan Milli Konservatoriyasının tərkibində Musiqi Kollecinin instrumental ifaçılıq şöbəsinin fortepiano ixtisasına daxil olub, 2014-cü ildə musiqi kollecini bitirib. Həmin il Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının instrumental ifaçılıq şöbəsinin fortepiano ixtisasına daxil olub. Hazırda akademiyanın II kurs tələbəsidir. İxtisas fənnindən BMA-nın prorektoru, əməkdar incəsənət xadimi, professor Oqtay Abbasquliyevin sinfində təhsil alır.

Vüsal Aydəmirov dəfələrlə beynəlxalq müsabiqələr iştirakçısı və laureatı adını qazanıb. Belə ki, gənc istedad Gənclər və İdman Nazirliyinin dəstəyi və "Kainat" Gənclik Mərkəzinin təşkil etdiyi İslam Dünyasının gənc klassik musiqi ifaçılarının III beynəlxalq müsabiqəsinin iştirakçısı və diplomantı, Türkiyənin İstanbul şəhərində keçirilən "X Pera İstanbul" beynəlxalq müsabiqəsinin diplomantı, Bolqarıstanda keçirilən "World Stage 2015" beynəlxalq müsabiqəsinin iştirakçısı olaraq I yer, Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən "Global Fest Peterburq 2016" beynəlxalq müsabiqəsində solo nominasiyasında (22-30 yaş) qrupu üzrə III yer və ansambl nominasiyasında da III yerə layiq görülüb. Respublika daxilində keçirilən bir çox müsabiqə və konsertlərdə fəal iştirak edərək diplom və fəxri fərmanlara layiq görülüb.

Vüsal Aydəmirov beynəlxalq müsabiqələrə böyük sevgi ilə qatıldığını söyləyib və qeyd edib ki, qazanılan hər bir uğur gələcək sənət yoluna işıq salacaq.